# BƏRABƏR İMKANLARIN TƏMİN EDİLMƏSİ SİYASƏTİ

## 1. . Ümumi müddəalar

1.1. Bu qayda Azərbaycan Texniki Universitetində (bundan sonra "Universitet" adlanacaq) bütün əməkdaşlar üçün bərabər imkanların yaradılması və ayrı-seçkiliyin qarşısının alınması məqsədi ilə hazırlanmışdır.
1.2. Qaydanın məqsədi Universitetdə insan hüquqlarına, şəffaflığa, müxtəlifliyə və inklüzivliyə əsaslanan mühitin formalaşdırılmasıdır.
1.3. Qayda Universitetin bütün struktur bölmələrinə, fakültələrinə, mərkəzlərinə və inzibati fəaliyyətinə şamil edilir.
1.4. Qayda Azərbaycan Respublikasının Əmək Məcəlləsinə, Təhsil haqqında Qanuna, BMT-nin "İnsan Hüquqları Bəyannaməsinə" əsaslanır.

## 2. Əsas prinsiplər

2.1. Ədalətlilik və bərabərlik – bütün əməkdaşlara bərabər münasibət göstərilir, heç bir şəxsə cins, yaş, milliyyət, din, siyasi baxış, sosial status, əlillik və ya digər əlamətə görə üstünlük və ya məhrumiyyət tətbiq edilmir.
2.2. Şəffaflıq – qəbul, işə götürmə, qiymətləndirmə və yüksəliş meyarları açıq və ictimai şəkildə elan olunur.
2.3. İnklüzivlik – fərqli sosial, mədəni və fiziki xüsusiyyətlərə malik əməkdaşların fəaliyyət mühitində tam iştirakına şərait yaradılır.
2.4. Müxtəliflik – Universitetdə fərqli baxışların, mədəniyyətlərin və təcrübələrin bir dəyər kimi qəbul olunması təşviq edilir.
2.5. Hesabatlılıq – rəhbər şəxslər və struktur bölmələri bu qaydanın tələblərinə əməl olunmasına görə məsuliyyət daşıyır.

## 3. Tətbiq sahələri

3.1. İşə qəbul və karyera inkişafı:
- Vakansiyalar yalnız bilik, bacarıq və təcrübəyə əsasən doldurulur;
- Qadın və kişilər üçün bərabər vəzifə və maaş imkanları təmin olunur;
- Əlilliyi olan şəxslərin işə qəbuluna şərait yaradılır.

## 1. . Ümumi müddəalar

1.1. Bu qayda Azərbaycan Texniki Universitetində (bundan sonra "Universitet" adlanacaq) bütün əməkdaşlar üçün bərabər imkanların yaradılması və ayrı-seçkiliyin qarşısının alınması məqsədi ilə hazırlanmışdır.
1.2. Qaydanın məqsədi Universitetdə insan hüquqlarına, şəffaflığa, müxtəlifliyə və inklüzivliyə əsaslanan mühitin formalaşdırılmasıdır.
1.3. Qayda Universitetin bütün struktur bölmələrinə, fakültələrinə, mərkəzlərinə və inzibati fəaliyyətinə şamil edilir.
1.4. Qayda Azərbaycan Respublikasının Əmək Məcəlləsinə, Təhsil haqqında Qanuna, BMT-nin "İnsan Hüquqları Bəyannaməsinə" əsaslanır.

## 2. Əsas prinsiplər

2.1. Ədalətlilik və bərabərlik – bütün əməkdaşlara bərabər münasibət göstərilir, heç bir şəxsə cins, yaş, milliyyət, din, siyasi baxış, sosial status, əlillik və ya digər əlamətə görə üstünlük və ya məhrumiyyət tətbiq edilmir.
2.2. Şəffaflıq – qəbul, işə götürmə, qiymətləndirmə və yüksəliş meyarları açıq və ictimai şəkildə elan olunur.
2.3. İnklüzivlik – fərqli sosial, mədəni və fiziki xüsusiyyətlərə malik əməkdaşların fəaliyyət mühitində tam iştirakına şərait yaradılır.
2.4. Müxtəliflik – Universitetdə fərqli baxışların, mədəniyyətlərin və təcrübələrin bir dəyər kimi qəbul olunması təşviq edilir.
2.5. Hesabatlılıq – rəhbər şəxslər və struktur bölmələri bu qaydanın tələblərinə əməl olunmasına görə məsuliyyət daşıyır.

## 3. Tətbiq sahələri

3.1. İşə qəbul və karyera inkişafı:
- Vakansiyalar yalnız bilik, bacarıq və təcrübəyə əsasən doldurulur;
- Qadın və kişilər üçün bərabər vəzifə və maaş imkanları təmin olunur;
- Əlilliyi olan şəxslərin işə qəbuluna şərait yaradılır.

3.2. Peşəkar inkişaf və təlimlərdə bərabərlik:
- Bütün əməkdaşlar üçün təlim və inkişaf proqramlarına bərabər çıxış təmin edilir;
- Təlimlərdə və beynəlxalq proqramlarda iştirak üçün gender balansı qorunur.

3.3. Ünsiyyət və davranış etikası:
- İş mühitində mobbing, təzyiq, alçaldıcı və ya diskriminativ davranış yolverilməzdir;
- Hər bir əməkdaş hörmət, etik münasibət və mədəni davranış prinsiplərinə əməl etməlidir.

**4. Qaydaların icrası mexanizmi**

4.1. Bərabər imkanların təmininə nəzarət məqsədilə Universitetdə Bərabər İmkanlar və Müxtəliflik Komissiyası yaradılır.
4.2. Komissiya aşağıdakı funksiyaları yerinə yetirir:
- Ayrı-seçkilik halları ilə bağlı müraciətləri araşdırır;
- Profilaktik maarifləndirici tədbirlər keçirir;
- Struktur bölmələrdə bərabərlik prinsiplərinə əməl olunmasını monitorinq edir;
- İllik hesabat hazırlayaraq rektora təqdim edir.
4.3. Komissiyanın tərkibinə İnsan Resursları Departamenti, Etika və Daxili Audit nümayəndələri daxil edilir.

**5. Müraciət və şikayət proseduru**

5.1. Hər bir əməkdaş bərabər imkan prinsiplərinin pozulması ilə bağlı İnsan Resursları Departamentinə və ya Komissiyaya müraciət edə bilər.
5.2. Müraciətlər yazılı və ya elektron formada təqdim edilir və məxfilik prinsipi qorunur.
5.3. Komissiya müraciəti 15 iş günü ərzində araşdırır və nəticə barədə rəsmi cavab verir.
5.4. Qaydaların pozulması halları üzrə intizam tədbirləri tətbiq edilə bilər (xəbərdarlıq, vəzifədən azad etmə, sanksiya və s.).

**6. Maarifləndirmə və təlimlər**

6.1. Yeni işə qəbul olunan əməkdaşlar üçün oriyentasiya proqramına bu siyasətin əsas prinsipləri daxil edilir.
6.2. Əməkdaşlar üçün seminar, diskussiya və sosial kampaniyalar vasitəsilə müxtəliflik və tolerantlıq dəyərləri təbliğ olunur.

**7. Hesabatlılıq və nəzarət**

7.1. Qaydanın icrasına ümumi nəzarət İnsan Resurslarının İdarəedilməsi departamentinə həvalə olunur.
7.2. Departament hər tədris ili üzrə Komissiyanın hesabatını ümumiləşdirərək rəhbərliyə təqdim edir.
7.3. Aşkar edilmiş pozuntular barədə nəticələr illik daxili audit hesabatına daxil edilir.

**8. Qaydaların yenilənməsi**

8.1. Bu qayda hər üç ildən bir və ya zərurət yarandıqda yenidən baxılaraq təkmilləşdirilə bilər.
8.2. Dəyişikliklər təsdiqləndiyi tarixdən qüvvəyə minir.

**9. Yekun müddəalar**

9.1. Bu qaydanın müddəaları Universitetdə qəbul edilmiş digər daxili normativ sənədlərlə ziddiyyət təşkil etdikdə, bərabər imkan prinsipləri üstün hesab olunur.
9.2. Qaydanın pozulması halları üzrə məsul şəxslər intizam məsuliyyətinə cəlb oluna bilərlər.
9.3. Qaydalar bütün əməkdaşlar üçün açıq şəkildə universitetin rəsmi veb-saytında yerləşdirilir.

**Hazırlayıb:** Nuranə Namazova

Qiymətləndirmə mütəxəssisi

____________________ imza

**Razılaşdırılıb :** Aytən Şıxaliyeva

İnsan resurslarının idarəedilməsi

departamentinin müdiri

____________________ imza